# MİLLETLERARASI ANDLAŞMA

**Karar Sayısı: 5605**

11 Kasım 2021 tarihinde Ankara'da imzalanan ekli "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Balıkçılık Alanında İşbirliği Anlaşması"nın onaylanmasına, 244 sayılı Kanunun 5 inci maddesi ile 9 sayılı Cumhurbaşkanlığı Kararnamesinin 2 nci ve 3 üncü maddeleri gereğince karar verilmiştir.

25 Mayıs 2022

**Recep Tayyip ERDOĞAN**
CUMHURBAŞKANI

**TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ**
**İLE**
**AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ**
**ARASINDA**
**BALIKÇILIK ALANINDA İŞBİRLİĞİ ANLAŞMASI**

Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti (bundan böyle "Taraflar" olarak anılacaktır),

Taraflar arasındaki dostane ve işbirliğine yönelik ilişkileri güçlendirme arzusu ile,

Taraflar arasındaki ekonomik ilişkilerin geliştirilmesi için kaydedilen çabaların ve Tarafların ekonomik ve sosyal gelişiminde balıkçılık sektörünün ve endüstrisinin oynadığı rolün bilinci ile,

FAO Sorumlu Balıkçılık Uygulama Kurallarına uygun olarak balıkçılık kaynaklarının ve çevrenin korunmasının geliştirilmesi ihtiyacına inanmış,

Balıkçılık alanında işbirliğine yönelik karşılıklı çıkar ve adalet ilkeleri uyarınca,

Aşağıdaki hususlarda anlaşmaya varmışlardır:

**MADDE 1**
**AMAÇ**

Bu Anlaşmanın amacı, Taraflar arasında bu Anlaşmanın 2 inci maddesinde belirlenen alanlarda işbirliğini sağlamaktır.

**MADDE 2**
**İŞBİRLİĞİNİN KAPSAMI**

Taraflar, aşağıdaki alanlarda işbirliği yapma niyetlerini ifade ederler:

a) Balıkçılık ve su ürünleri yetiştiriciliği alanındaki politikaları ve pratik uygulamaları koordine etmek,
b) Sucul canlı kaynaklarının ve doğal yaşam koşullarının değerlendirilmesi hususunda ortak bilimsel ve teknik çalışmalar yürütmek,
c) Tarafların ilgili bilim ve devlet kurumları arasında, sucul canlı kaynaklarının kullanımına, geliştirilmesine yönelik bilimsel ve endüstriyel istatistikler de dâhil olmak üzere teknik ve bilimsel verilerin değişimi,
d) Tarafların balıkçılık ve su ürünleri yetiştiriciliğiyle ilgili kurum ve kuruluşlarında faaliyet gösteren balıkçılık uzmanlarına yönelik eğitimler düzenlemek ve uzman değişimi yoluyla tecrübe paylaşımında bulunmak.

## MADDE 3
## YETKİLİ MAKAMLAR

Tarafların bu Anlaşmanın uygulanmasından sorumlu yetkili makamları şunlardır:

1) Türkiye Cumhuriyeti Hükümeti adına, Tarım ve Orman Bakanlığı,
2) Azerbaycan Cumhuriyeti Hükümeti adına, Ekoloji ve Doğal Kaynaklar Bakanlığı,

## MADDE 4
## ORTAK BALIKÇILIK KOMİTESİ

Taraflar, bu Anlaşmanın hükümlerinin uygulanmasını izlemek ve değerlendirmek amacıyla, bir Balıkçılık Ortak Komitesinin (bundan böyle "Komite" olarak anılacaktır) kurulmasında mutabık kalmışlardır.

Komite, her iki tarafın atayacağı birer temsilciden ve bunların yardımcılarından oluşur. Bu kişiler, Komite toplantılarına danışman ve uzmanlar ile birlikte katılabilir.

Taraflar, temsilci ve yardımcısının atanması hususunu diplomatik kanallar yoluyla birbirlerine bildirir.

Komite toplantıları, diğer tarafın 3 (üç) ay önceden bilgilendirilmesini müteakip toplantıyı talep eden ülkede gerçekleştirilir.

## MADDE 5
## MASRAFLAR

Komite toplantıları ve protokol faaliyetlerine yönelik masraflar, toplantının düzenlendiği ev sahibi ülke tarafından karşılanır. Ulaşım ve konaklama gibi heyet faaliyetlerine yönelik diğer masraflar ise Tarafların kendilerince karşılanır.

## MADDE 6
## KOMİTENİN GÖREVLERİ

Komite'nin temel görevleri şunlardır;

1) İşbu Anlaşmanın 2. Maddesinde işaret edilen ve tarafları ilgilendiren işbirliği alanlarının belirlenmesi ve bunların uygulanmasının sağlanması,
2) İşbu Anlaşmaya ilişkin değişiklik önerilerinin sunulması,
3) İşbu Anlaşma kapsamında oluşabilecek uyuşmazlıkları çözmek üzere tedbir alınması,

İşbu Anlaşma maddelerinin uygulanmasını kolaylaştıracak ve/veya ikili işbirliğinin muhtelif görevlerini çözecek ortak komisyonun oluşturulması veya harekete geçirilmesi.

## MADDE 7
## FİKİR AYRILIKLARI VE ANLAŞMAZLIKLARIN ÇÖZÜMÜ

İşbu Anlaşmanın yorumlanması veya uygulanması esnasında meydana çıkacak fikir ayrılıkları ve anlaşmazlıklar, Taraflar arasında müzakere ve istişareler yoluyla çözülecektir.

## MADDE 8
## DİĞER İKİ TARAFLI VEYA ÇOK TARAFLI ANLAŞMALARDAN DOĞAN HAKLAR VE YÜKÜMLÜLÜKLER

İşbu Anlaşma, Tarafların akdettikleri diğer uluslararası anlaşmalardan kaynaklanan hak ve yükümlülüklerini etkilemeyecektir.

## MADDE 9
## DEĞİŞİKLİKLER

Taraflar, Komite çerçevesinde İşbu Anlaşmada değişiklikler yapabilir. İşbu Anlaşmanın ayrılmaz bir parçasını oluşturacak değişiklikler, 10'uncu maddede öngörülen usule uygun olarak yürürlüğe girer.

## MADDE 10
## YÜRÜRLÜĞE GİRİŞ, SÜRE VE FESİH

İşbu Anlaşma, Tarafların bu Anlaşmanın yürürlüğe girmesi için gerekli iç yasal usullerin tamamlandığına dair son yazılı bildirimin alındığı tarihte yürürlüğe girer.

İşbu Anlaşma yürürlüğe girdiği tarihten itibaren 4 (dört) yıllık bir dönem için yürürlükte kalır ve Taraflardan biri, diğer Tarafa, Anlaşmanın bitim tarihinden 6 (altı) ay önce diplomatik kanallar aracılığı ile yazılı olarak Anlaşmayı sona erdirme niyetini bildirmediği takdirde, yürürlük süresi kendiliğinden 4'er (dörder) yıllık süreler halinde otomatik olarak yenilenecektir.

Taraflarca aksi kararlaştırılmadığı sürece, işbu Anlaşmanın sonlandırılması veya süresinin sona ermesi, Anlaşma gereğince, mevcut faaliyet veya projelerin tamamlanmasını etkilemeyecektir.

İşbu Anlaşma, 11 Kasım 2021 tarihinde, Ankara'da, Türkçe ve Azerbaycan dillerinde, bütün metinler eşit derecede geçerli, 2 (iki) asıl nüsha halinde imzalanmıştır.

| TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ ADINA | AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ ADINA |
|---|---|
| Dr. Bekir PAKDEMİRLİ | Muhtar BABAYEV |
| Tarım ve Orman Bakanı | Ekoloji ve Doğal Kaynaklar Bakanı |

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ
# İLƏ
# AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ
# ARASINDA
# BALIQÇILIQ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR

# SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq, Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

Tərəflər arasındakı dostca və əməkdaşlıq istiqamətində olan münasibətlərini gücləndirmək arzusu ilə,

Tərəflər arasındakı iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün göstərilən səylərin və Tərəflərin iqtisadi və sosial inkişafında balıqçılıq sahəsinin və sənayesinin rolunu dərk edərək;

FAO-nun Məsul Balıqçılıq Təsərrüfatı Kodeksinə uyğun olaraq, balıqçılıq resurslarının və ətraf mühitin qorunmasının təkmilləşdirilməsinə ehtiyac olduğuna inanaraq,

Balıqçılıq sahəsində əməkdaşlıq istiqamətində qarşılıqlı maraq və ədalət prinsiplərinə uyğun olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## MADDƏ 1
## MƏQSƏD

Bu Sazişin məqsədi Tərəflər arasında bu Sazişin 2-ci maddəsində müəyyən edilən sahələrdə əməkdaşlığı təmin etməkdir.

## MADDƏ 2
## ƏMƏKDAŞLIĞIN ƏHATƏ DAİRƏSİ

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər:

a) Balıqçılıq və akvakultura sahəsində siyasət və praktiki təcrübələri koordinasiya etmək;
b) Su bioresurslarının və təbii yaşayış şəraitinin qiymətləndirilməsi ilə əlaqədar müştərək elmi və texniki işlər aparmaq;
c) Tərəflərin müvafiq elmi və dövlət qurumları arasında su bioresurslarının istifadəsi, inkişafı ilə bağlı elmi və sənaye statistikaları da daxil olmaqla texniki və elmi məlumatların mübadiləsi;
d) Tərəflərin balıqçılıq və akvakultura sahəsindəki müvafiq qurum və təşkilatlarında fəaliyyət göstərən balıqçılıq sahəsi üzrə mütəxəssislər üçün treninqlər təşkil etmək və mütəxəssis mübadiləsi vasitəsilə təcrübələri bölüşmək.

## MADDƏ 3
## SƏLAHİYYƏTLİ QURUMLAR

Tərəflərin bu Sazişin həyata keçirilməsində məsul olan səlahiyyətli qurumları bunlardır:

1- Türkiyə Respublikası Hökuməti adından, Kənd Təsərrüfatı və Meşə Nazirliyi,
2- Azərbaycan Respublikası Hökuməti adından, Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

## MADDƏ 4
## BİRGƏ BALIQÇILIQ KOMİTƏSİ

Tərəflər bu Sazişin müddəalarının yerinə yetirilməsinə nəzarət etmək və qiymətləndirmək məqsədilə Birgə Balıqçılıq Komitəsi (bundan sonra "Komitə" adlandırılacaq) yaradılması razılığına gəldilər.

Komitə hər iki tərəfdən təyin ediləcək bir nümayəndədən və köməkçilərdən ibarətdir. Bu şəxslər Komitənin iclaslarında məsləhətçilər və mütəxessislərlə birgə iştirak edə bilərlər.

Tərəflər nümayəndə və köməkçilərinin təyin edilməsi barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə məlumat verirlər.

Komitə iclasları digər Tərəfə 3 (üç) ay əvvəlcədən məlumat verildikdən sonra görüş tələb edən ölkədə keçirilir.

## MADDƏ 5
## XƏRCLƏR

Komitə iclasları və protokol fəaliyyətləri üzrə xərclər iclasın keçirildiyi ev sahibi ölkə tərəfindən qarşılanır.
Nəqliyyat və qalma kimi heyət fəaliyyətləri üzrə digər xərclər isə Tərəflərin özləri tərəfindən qarşılanır.

## MADDƏ 6
## KOMİTƏNİN VƏZİFƏLƏRİ

Komitənin əsas vəzifələri aşağıdakılardır;

1) Bu Sazişin 2-ci maddəsində göstərilən və tərəfləri maraqlandıran əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və onların həyata keçirilməsinin təmin edilməsi;
2) Bu Sazişlə bağlı dəyişiklik təkliflərinin təqdim edilməsi;
3) Bu Saziş çərçivəsində yarana biləcək mübahisələrin həlli üçün tədbirlər görülməsi.

Bu Sazişin maddələrinin tətbiqini asanlaşdıracaq və / və ya ikitərəfli əməkdaşlığın müxtəlif vəzifələrini həll edəcək Müştərək Komissiyanın yaradılması və ya fəaliyyətə salınması.

## MADDƏ 7
## FİKİR AYRILIQLARI VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir ayrılıqları və mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

## MADDƏ 8
## DİGƏR İKİTƏRƏFLİ VƏ YA ÇOXTƏRƏFLİ SAZİŞLƏRDƏN İRƏLİ GƏLƏN HÜQUQ VƏ ÖHDƏLİKLƏR

Bu Saziş Tərəflərin imzaladıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcəkdir.

## MADDƏ 9
## DƏYİŞİKLİKLƏR

Tərəflər Komitə çərçivəsində bu Sazişə dəyişikliklər edə bilərlər. Bu Sazişin ayrılmaz bir hissəsini təşkil edəcək dəyişikliklər Maddə 10-da nəzərdə tutulan prosedura uyğun olaraq qüvvəyə minir.

## MADDƏ 10
## QÜVVƏYƏ MİNMƏ, MÜDDƏT VƏ LƏĞV ETMƏ

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili hüquqi prosedurların tamamlandığına dair sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qüvvəyə mindiyi tarixdən etibarən 4 (dörd) il müddətində qüvvədə qalır və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına 6 (altı) ay qalmış diplomatik kanallar vasitəsilə yazılı olaraq Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfə bildiriş təqdim etmədiyi təqdirdə, bu Sazişin qüvvədə olma müddəti avtomatik olaraq növbəti 4 (dörd) illik müddətlərə yenilənəcəkdir.

Tərəflər arasında başqa cür razılaşdırılmadığı halda, bu Sazişin ləğv edilməsi və ya müddətinin başa çatması Sazişdən irəli gələn mövcud fəaliyyət və layihələrin tamamlanmasına təsir göstərməyəcəkdir.

Bu Saziş Ankara şəhərində, 11 noyabr 2021-ci il tarixində Türk və Azərbaycan dillərində olmaqla, iki (2) əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

| TÜRKİYƏ RESPUBLİKASI HÖKÜMƏTİ ADINDAN | AZƏRBAYCAN RESPUBLİKASI HÖKÜMƏTİ ADINDAN |
|---|---|
| Dr.Bekir PAKDEMİRLİ | Muxtar BABAYEV |
| Kənd Təsərrüfatı və Meşəçilik Naziri | Ekologiya və Təbii Sərvətlər Nazir |